**Pərakəndə ticarət dövriyyəsi haqqında**

2023-cü ildə pərakəndə ticarət şəbəkəsində istehlakçılara 59,0 milyard manatlıq, o cümlədən 33,0 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 26,0 milyard manatlıq qeyri-ərzaq malları satılmışdır. 2022-ci illə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,7 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 2,5 faiz, qeyri-ərzaq malları üzrə 5,2 faiz artmışdır.

Hesabat dövründə əmtəə bazarı aşağıdakı göstəricilərlə xarakterizə olunmuşdur:

| Məhsul qruplarının adları | Satışdan gəlir, milyon manat | 2022-ci ilə nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | 58 997,7 | 103,7 |
| *o cümlədən:* | | |
| ərzaq məhsulları | 30 439,3 | 102,7 |
| içkilər və tütün məmulatları | 2 574,1 | 100,1 |
| toxuculuq məhsulları, geyim və ayaqqabılar | 8 408,7 | 105,5 |
| elektrik malları və mebellər | 2 734,0 | 104,0 |
| kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsulları | 668,5 | 116,0 |
| əczaçılıq məhsulları və tibbi ləvazimatlar | 1 312,4 | 95,2 |
| avtomobil benzini və dizel yanacağı | 3 063,4 | 108,1 |
| digər qeyri-ərzaq malları | 9 797,3 | 105,0 |

2023-cü ildə alıcıların pərakəndə ticarət şəbəkəsində aldıqları mallara xərclədiyi vəsaitin 51,6 faizi ərzaq məhsullarının, 4,4 faizi içkilər və tütün məmulatlarının, 14,3 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,2 faizi avtomobil benzini və dizel yanacağının, 4,6 faizi elektrik malları və mebellərin, 2,2 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,1 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 16,6 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.

**2023-cü ildə**
**pərakəndə ticarət dövriyyəsinin strukturu**




Hesabat ilində qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış malların dəyəri əvvəlki illə müqayisədə real ifadədə 3,7 faiz artaraq ümumi pərakəndə ticarət dövriyyəsinin 99,7 faizini təşkil etmişdir.

2022-ci illə müqayisədə 2023-cü ildə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 3,1 faiz, fərdi sahibkarlar üzrə 3,6 faiz, bazar və yarmarkalarda 4,3 faiz artmışdır.

Hesabat ilində pərakəndə ticarət şəbəkəsində əhalinin bir nəfəri orta hesabla ayda 484,2 manatlıq, o cümlədən 270,9 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 213,3 manatlıq qeyri-ərzaq malları almışdır.

***Əlaqə telefonu: 377 10 70 (22-60)***